| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 17.10.2012 |
| QEYDİYYAT NÖMRƏSİ | 234 |
| ADI | “Sanatoriya-kurort müəssisələrində sanitar-gigiyenik Tələblər”in təsdiq edilməsi haqqında |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 19-10-2012, Nəşr nömrəsi: 235), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-10-2012, Nəşr nömrəsi: 10, Maddə nömrəsi: 1015) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 220.080.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | 14201210170234 |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 22.10.2012 |

**“Sanatoriya-kurort müəssisələrində sanitar-gigiyenik Tələblər”in təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 fevral tarixli 125 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı”nın həyata keçirilməsinə dair Tədbirlər Planının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

“Sanatoriya-kurort müəssisələrində sanitar-gigiyenik Tələblər” təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 17 oktyabr 2012-ci il
234

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2012-ci il 17 oktyabr tarixli 234
nömrəli qərarı ilə
**təsdiq edilmişdir**

## Sanatoriya-kurort müəssisələrində sanitar-gigiyenik Tələblər

### 1. Ümumi müddəalar

1.1. Bu Tələblər Azərbaycan Respublikasının “Əhalinin sağlamlığının qorunması haqqında”, “Sanitariya-epidemioloji salamatlıq haqqında”, “Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında” və “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” qanunlarına uyğun hazırlanmış və sanatoriya-kurort müəssisələrində (bundan sonra - müəssisələr) sanitar-gigiyenik tələblərə dair qaydaları müəyyən edir.

1.2. Bu Tələblər mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq, yeni tikilən, yenidən qurulan, əsaslı təmir və bərpa edilən müəssisələrə şamil edilir.

1.3. Müəssisələrin layihələndirilməsini, tikintisini, yenidən qurulmasını, əsaslı təmirini və bərpasını həyata keçirən hüquqi və fiziki şəxslər bu Tələblərə riayət etməlidirlər.

1.4. Bu Tələblərin icrasına nəzarət ərazi gigiyena və epidemiologiya mərkəzləri tərəfindən həyata keçirilir.

### 2. Müəssisələrin yerləşdirilməsinə, ərazisinə və quruluşuna dair sanitar-gigiyenik tələblər

2.1. Ərazinin müəssisə kimi qəbul olunması həmin ərazinin baş planı və orada mövcud olan təbii müalicə ehtiyatlarının tibbi-bioloji, kurortoloji, geoloji, hidrogeoloji, sanitar-gigiyenik və digər tədqiqatları əsasında müəyyən edilir.

2.2. Müəssisələr şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin planlaşdırılması və tikintisinə dair tələblərə uyğun olaraq, eləcə də sanitariya-gigiyena normalarının, sanitariya-mühafizə zonalarının və qanunvericiliklə müəyyən edilmiş məsafələrə gözlənilməsi şərtilə, yaşayış-ictimai, sənaye, kommunal-təsərrüfat (yaşıllıq və şəhərətrafı zonalar, dəmiryol, hava və dəniz limanları, şlüzlər, hidroelektrik stansiyaları, çirkab sularının axıdılma yerləri, tullantıların yerləşdirilmə obyektləri, çaylar, bulaq mənsəbləri, sürətli avtomobil magistralları və digər səs-küy mənbələri) obyektlərindən kənarda yerləşdirilir. Obyektlər yerləşdirilərkən külək və dalğaların təsiri, ətraf mühitin (su, torpaq, atmosfer havası) çirklənmə səviyyəsi nəzərə alınır və zərərli amillərin təsirinin aradan qaldırılması üçün profilaktik tədbirlər müəyyən edilir.

2.3. Sanitar-gigiyenik, geoloji, ekoloji və fiziki-coğrafi göstəricilərə uyğun olaraq, tibbi heyətin nəzarəti altında həyata keçirilən, müalicə-profilaktik prosedurlar üçün yararlı olan təbii və ya süni su hövzəsinin (dəniz, göl, su anbarı, çay) sahil suları ilə birgə təşkil olunmuş, sahil ərazisi kimi qəbul edilmiş çimərliklərin təsərrüfat-içməli su təchizatı mənbələrinin birinci sanitariya-mühafizə zonasının sərhədlərində yerləşdirilməsinə yol verilmir.

2.4. Müalicəvi çimərliklərin təşkili üçün su obyektləri seçilərkən hidrogeoloji rejim (burulğanların, sürəti 0,5 m/san-dən yüksək olan axınların və su cərəyanlarının, su səviyyəsinin kəskin dəyişməsi halları), suyun keyfiyyətinin normativ sənədlərin tələblərinə uyğunluğu, su hövzəsi dibinin (quyuların, lilli sahələrin, iti əşyaların və konstruksiyaların olmaması) və qruntun relyefi mütləq nəzərə alınır.

2.5. Müəssisələrdə aparılan tikinti və yenidənqurma işləri, quraşdırılan avadanlıqlar və qurğular, eləcə də relyefdə edilən süni dəyişikliklər əsas təbii amillərin (hava mübadiləsinin, su təminatının və s.) dəyişməsinə səbəb olmamalıdır.

2.6. Çimərliklər yataq korpuslarından kənarda, piyadalar üçün əlverişli gediş-gəliş zonasında ( 1,2 km) yerləşdirilir, magistral yollara rahat giriş və çıxış keçidləri, enişlər və ya qaldırıcı-nəqliyyat vasitələri (cığır, pilləkən, lift, funikulyor və s.) ilə təmin olunur.

2.7. Çimərliklərin təşkili, quruluşu, yerləşdirilməsi, mühəndis təchizatı, istismar qaydası və digər məsələlər layihələndirmə tapşırığına və bu obyektlərə dair qüvvədə olan normativ sənədlərə uyğun nəzərdə tutulur.

2.8. Komfortluq şəraitindən (ulduz dərəcələri) asılı olaraq, müəssisələr şəhərsalma, memarlıq-planlaşdırma və mühəndis xüsusiyyətlərini əks etdirən aşağıdakı tələblərə cavab verməlidir:

2.8.1. şəhərsalma tələbləri-obyektlərin baş planlarında yaşayış, müalicə və istirahət şəraitini təmin edən müəyyən elementlərin mütləq nəzərə alınmasını müəyyənləşdirir;

2.8.2. memarlıq-planlaşdırma üzrə tələblər-müəssisələrin müxtəlif funksional zonalarında yerləşdirilən müvafiq təyinatlı binaların və tikililərin mövcudluğu ilə əlaqədardır;

2.8.3. mühəndis təminatı üzrə tələblər-binalarda və otaqlarda normal mikroiqlim şəraitinin təminatı ilə yanaşı, müasir tələblərə cavab verən piyada, nəqliyyat və informasiya kommunikasiyalarının yaradılmasını nəzərdə tutur.

2.9. Müəssisələrin ərazisi abadlaşdırılır, yaşıllaşdırılır, hasarlanır və işıqlandırılır. Binaların girişində nəqliyyat vasitələrinin, *əlilliyi olan şəxslərin* və uşaq arabalarının rahat hərəkəti üçün pandus sistemi nəzərdə tutulur. [1]

2.10. Müəssisələrin ərazisində müxtəlif təyinatlı (piyada, nəqliyyat, təsərrüfat məqsədləri üçün) keçidlər, nəqliyyat vasitələrinin dönmə sahəsi, avtomobil dayanacaqları, müalicə olunan və istirahət edənlər üçün yaşıllıq zolağı ilə təchiz edilmiş gəzinti zonaları, istirahət guşələri, stolüstü oyunlar və ədəbi qiraət pavilyonları, ünsiyyət köşkləri, şüşəbəndlər və terraslar, fəal istirahət və idman meydançaları, kütləvi tədbirlərin (kino, konsert, mühazirə və s.) keçirilməsi üçün açıq tipli yay meydançaları, eləcə də ərazidə optimal mikroiqlimin və estetik görünüşün yaradılması üçün dekorativ fəvvarələr nəzərdə tutulur.

Relyefin quruluşundan, landşaftdan, təbii və iqlim şəraitindən asılı olaraq, müalicə-sağlamlaşdırma yerlərində və kurortların ərazisində funikulyor, kanat xətti, panoramlı lift və digər texniki qurğuların quraşdırılmasına yol verilir.

2.11. Müəssisələrin planlaşdırılma həlli kurort və rekreasiya ərazisinin ümumi memarlıq planı çərçivəsində ərazinin təbii və digər xüsusiyyətləri öyrənilməklə yaradılır. Binalar və sahələr arasında səmərəli qarşılıqlı əlaqənin yaradılması, yataq otaqlarının əlverişli səmtləşdirilməsi məqsədi ilə müəssisələrin layihələndirilməsi və tikintisi vaxtı əsasən aşağıdakı 4 növ kompozisiya həlli qəbul edilir:

2.11.1. mərkəzləşdirilmiş tipli müəssisələrdə təsərrüfat sahələri istisna olmaqla, digər bölmələr bir binada yerləşdirilir. Belə müəssisələrdə ilin bütün mövsümlərində müxtəlif otaqlar və bölmələr arasında rahat əlaqənin yaradılması ilə yanaşı, pasiyentlərin yataq otaqlarından xidmət sahələrinə qədər qısa hərəkət qrafiki də təmin olunur. Müxtəlif bölmələr arasında yaradılan qısa məsafələr işçi heyətinin fəaliyyətini asanlaşdırır;

2.11.2. çoxbloklu binalardan ibarət müəssisələrin planlaşdırılması zamanı yataq, qidalanma, mədəni-kütləvi xidmət və müalicə-sağlamlaşdırma bölmələri bir-biri ilə qapalı keçidlərlə birləşmiş ayrı-ayrı korpuslarda yerləşdirilir. Çoxbloklu müəssisələrdə yataq, müalicə-sağlamlaşdırıcı və ictimai iaşə müəssisələri müxtəlif bloklarda təşkil olunur;

2.11.3. pavilyon tipli müəssisələrdə əsas struktur bölmələri bir-biri ilə əlaqəsi olmayan ayrı-ayrı tikililərdə (pavilyonlarda) yerləşdirilir. Ayrı-ayrı binalarda müalicə olunan və istirahət edən insanların bilavasitə təbiətə yaxınlığı pavilyon tipli müəssisələrin əsas üstünlüyünü təşkil edir;

2.11.4. qarışıq tipli müəssisələr yuxarıda qeyd olunan 3 növ kompozisiya həllinin müxtəlif kombinasiyalı variantından ibarətdir. Müalicə-sağlamlaşdırma və xidmət işlərinin nisbətən səmərəli və rahat təşkil olunduğu mərkəzləşdirilmiş-pavilyon və bloklaşdırılmış-pavilyon tipli variantların tətbiqi daha məqsədəmüvafiqdir.

2.12. Layihələndirmə mərhələsində müəssisələrin növü müəyyənləşdirilərkən, bölmələrin bir-biri ilə qarşılıqlı əlaqəsinin təmin edilməsi və otaqların yerləşdirilməsi zamanı texnoloji axın ardıcıllığının gözlənilməsi əsas meyar götürülür.

2.13. Müəssisələrin ərazisində səs-küy, vibrasiya, elektromaqnit şüalanması və digər zərərli fiziki amillərin səviyyəsi müəyyən olunmuş hədlərdən yüksək olmamalıdır.

2.14. Müəssisələrin müxtəlif zərərli tullantılarla çirklənmiş ərazilərdə yerləşdirilməsinə yol verilmir. Torpaqda və havada toksiki və zərərli maddələrin səviyyəsi, eləcə də radioloji fon gigiyenik normalardan yüksək olmamalıdır.

2.15. Təbii müalicə ehtiyatlarının nəqli üçün istifadə edilən boru kəmərləri və müəssisənin magistral mühəndis-kommunikasiya xətləri istisna olmaqla, digər magistral mühəndis-kommunikasiya xətləri (su təminatı, kanalizasiya, neft, qaz, istilik təchizatı, yüksəkgərginlikli elektrik xətləri və s.) müəssisələrin ərazisindən keçməməlidir.

2.16. Müəssisələrin ərazisində digər təyinatlı, funksional əlaqəsi olmayan binalar və tikililər yerləşdirilmir.

2.17. Müəssisələrdə tibb məntəqələrinin və müalicə-profilaktika müəssisələrinin strukturu Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən müəyyənləşdirilir.

2.18. Struktur bölmələrinin quruluşu və tərkibi müəssisələrin profilindən və bölmələrin gücündən asılı olub, layihələndirmə tapşırığına və qüvvədə olan tikinti norma və qaydalarına uyğun qəbul edilir.

2.19. Müəssisələrin yerləşdiyi binaların və otaqların memarlıq-planlaşdırma və konstruktiv həlli sanitar-gigiyenik və əksepidemik rejimin, səmərəli müalicə və keyfiyyətli kurort xidmətinin göstərilməsini və işçi heyəti üçün əlverişli iş şəraitinin yaradılmasını təmin etməlidir.

### 3. Sanatoriya-kurort müəssisələrinin sanitariya-mühafizə zonalarının təşkili

3.1. Müəssisələrin mühafizəsi məqsədi ilə onların ətrafında Azərbaycan Respublikasının "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Qanununun 10-1-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 5 dekabr tarixli 268 nömrəli qərarı ilə təsdiq edilmiş "Təbii müalicə ehtiyatlarından, müalicə-sağlamlaşdırma yerlərindən və kurortlardan istifadə Qaydası və rejimi"nin tələblərinə uyğun olaraq sanitariya-mühafizə zonaları təşkil edilir. Bu zonaların hüdudları daxilində fəaliyyəti zamanı insanların təbii üsulla müalicəsinə və əhalinin istirahətinə mənfi təsir göstərən müəssisələrin istifadəsinə və icarəsinə torpaq sahələrinin ayrılmasına yol verilmir.[2]

3.2. Müəssisələrin qırmızı xətti ilə ətrafdakı tikililər və mühəndis qurğuları eləcə də müəssisənin korpusları arasındakı məsafələr qüvvədə olan tikinti normalarına və sanitariya qaydalarına uyğun qəbul edilir.

3.3. Sanatoriya-kurort müəssisələrinin sanitariya vəziyyətinin lazımi səviyyədə saxlanılması üçün müntəzəm sanitariya-sağlamlaşdırma, abadlaşdırma və digər profilaktik tədbirlər həyata keçirilir.

### 4. Müəssisələrdə binaların, otaqların, avadanlığın, ləvazimatın saxlanılmasına dair sanitar-gigiyenik tələblər

4.1. Müəssisələrin tərkibində olan binalarda otaqların, eləcə də zirzəmilərin və yarımzirzəmilərin istifadəsi ictimai binalara dair qüvvədə olan tikinti normalarının tələblərinə uyğun həyata keçirilməlidir.

4.2. Müəssisələrdə qəbul və qeydiyyat bölməsi, müalicə-profilaktika bölməsi, yataq zonası, idman və istirahət zonası, mədəni-kütləvi tədbirlər zonası, ictimai iaşə bloku, təsərrüfat-anbar sahəsi, mühəndis qurğuları yerləşən zona, xidmət və məişət blokları nəzərdə tutulur.

4.3. Qəbul şöbələrində müraciət edənlərin qeydiyyatı üçün xüsusi sahə nəzərdə tutulmalıdır. Qeydiyyat sahəsi gözləmə zallarında yerləşdirilir.

4.4. Əsas və yardımçı otaqların tərkibi və sahəsi qüvvədə olan normativ sənədlərin tələblərinə və layihə tapşırığına uyğun müəyyən olunmalıdır.

4.5. Binalarda liftlərin sayı 2-dən az olmayaraq nəzərdə tutulur. Müalicə-profilaktika işləri həyata keçirilən binalarda lift şaxtaları və maşın şöbələri yataq otaqlarından, müalicə vannaları sahəsindən və müalicə-diaqnostik kabinetlərdən ən azı 6,0 m aralı məsafədə yerləşdirilir. Dövlət *sanitariya nəzarəti* orqanları ilə razılaşdırıldığı təqdirdə və səs-küy əleyhinə profilaktik tədbirlər nəzərdə tutulduqda, bu məsafə azaldılır.[3]

4.6. Müəssisələrdə səs-küy və vibrasiya mənbəyi olan avadanlıqların yataq otaqları və istirahət zonalarının, müalicə-diaqnostika və prosedur kabinetlərinin bilavasitə yaxınlığında yerləşdirilməsinə yol verilmir. Səs təzyiqi və vibrasiya səviyyələri Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 8 iyul tarixli 796 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və səs-küy çirklənmələri normaları"na uyğun olaraq müəyyənləşdirilir.

4.7. Müalicə-profilaktika prosesləri həyata keçirilən çoxprofilli kurort müəssisələrində sterilizasiya sahəsi nəzərdə tutulur. Sterilizasiya sahəsinin tərkibi və otaqların sahəsi qüvvədə olan sanitariya normaları və qaydalarına və layihə tapşırığına uyğun olmalıdır.

4.8. Müəssisələrin nəzdində layihələndirilən camaşırxanaların məhsuldarlıq gücü müalicə-sağlamlaşdırma yerlərində və kurortlarda müalicə olunan və istirahət edən insanların sayına uyğun olaraq müəyyənləşdirilir. Ağların yuyulması zamanı çirkli və təmiz ağların bir-biri ilə qarışması istisna edilir.

4.9. İşçi heyətinin, istirahət edən və müalicə olunan insanların qidalanma rejiminin təmin olunması üçün müalicə-sağlamlaşdırma yerlərində və kurort müəssisələrində qidalanma bloklarının təşkili və yerləşdirilməsi qaydası layihə tapşırığına və ictimai iaşə müəssisələrinə dair qüvvədə olan şəhərsalma və tikintiyə dair normativ sənədlərə uyğun aparılır.

4.10. Bütün otaqlar, müayinə-müalicə və prosedur kabinetləri, avadanlıqlar, tibbi və digər ləvazimatlar təmiz şəraitdə saxlanılır. Otaqların yaş üsulla təmizlənməsi (döşəmələrin, mebellərin, avadanlığın, pəncərə altlığının, qapıların və s.) müəyyən olunmuş qaydada tətbiqinə icazə verilən yuyucu və dezinfeksiyaedici vasitələrdən istifadə olunmaqla həyata keçirilir.

4.11. Təmizləyici vasitə istifadə edildiyi otaqların adı qeyd olunmaqla (yataq otaqları, müayinə-müalicə kabinetləri, sanitar qovşağı, dəhlizlər və s.), dəqiq nişanlanır, təyinatı üzrə istifadə olunur, bu məqsədlə ayrılmış otaqda və yaxud xüsusi dolabda saxlanılır.

4.12. Müayinə-müalicə kabinetlərində, prosedur otaqlarında quraşdırılan taxtların üstü (fərdi və ya birdəfəlik örtüklərdən istifadə etmək olar) müşəmbə ilə örtülür və hər xəstənin müalicə və müayinəsindən sonra dezinfeksiyaedici məhlulun tətbiqi ilə zərərsizləşdirilir.

4.13. Müalicəvi vanna proseduru kabinetlərində hər dəfə xəstənin qəbulundan sonra dezinfeksiyaedici maddələrin tətbiqi ilə təmizlik işləri aparılır.

4.14. İstifadə olunan rezin ayaqaltılar hər günün sonunda yuyulub dezinfeksiya edilir.

4.15. Yataq otaqlarında birdəfəlik nəleyinlərdən (başmaqlardan) istifadə olunur.

4.16. Yataq otaqlarındakı ağlar həftə ərzində ən azı bir dəfə əvəzlənir, çirkləndikdə isə dərhal dəyişdirilir.

4.17. Çirkli ağlar xüsusi qapalı tutumlara (polietilen kisələrdə, xüsusi təchiz edilmiş arabalarda və s.) yığılır və mərkəzləşdirilmiş anbara ötürülür. Çirkli ağların yataq otaqlarında çeşidlənməsi qadağandır və onlar müvəqqəti (12 saatdan artıq olmayaraq) yalnız əlüzyuyanlarla təchiz edilmiş və suyadavamlı səthə malik otaqlarda, qapalı tutumlarda saxlanır. Ağların daşınması, yüklənməsi, boşaldılması ilə bağlı proseslər mexanikləşdirilir.

4.18. İstismar prosesində dərini və selikli qişanı zədələyən, yara səthi ilə qan və ya inyeksiya preparatları ilə təmasda olan və dəfələrlə istifadə edilən tibbi təyinatlı məmulatlar dezinfeksiya olunur, sterilizasiyaya qədər təmizlənir və sterilizasiya edilir.

4.19. Dezinfeksiya və sterilizasiya qabağı təmizləmə və sterilizasiya işləri Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən müəyyən olunmuş sanitariya normaları və qaydalarına uyğun olaraq həyata keçirilir.

4.20. Birdəfəlik istifadə olunan məmulatlar dezinfeksiyadan sonra müəyyən olunmuş qaydada utilizasiya edilir.

4.21. Müəssisələrdə müəyyən edilmiş qaydada qeydiyyatdan keçmiş dezinfeksiyaedici maddələrin istifadəsinə icazə verilir.

4.22. Binalarda sinantrop buğumayaqlılar, siçovullar və digər gəmiricilər olmamalıdır. Onların məhv edilməsi məqsədi ilə profilaktik tədbirlərin (dezinfeksiya, dezinseksiya, deratizasiya) həyata keçirilməsi sanitariya qaydalarına müvafiq olaraq bu işlərə səlahiyyəti olan idarə və təşkilatlar tərəfindən yerinə yetirilir.

4.23. Müəssisələrin otaqlarında, funksional və fizioterapiya kabinetlərində ayda 1 dəfədən az olmayaraq, təsdiq edilmiş cədvələ əsasən əsaslı təmizləmə işləri həyata keçirilir.

4.24. Müəssisələrdə ehtiyac olduqda cari təmir işləri aparılır. Cari və ya əsaslı təmir işləri aparıldığı müddətlərdə həmin sahələrdə fəaliyyət dayandırılır.

## 5. Otaqların daxili tamamlama işlərinə tələblər

5.1. Müəssisələrin binalarında və otaqlarında aparılan tikinti, yenidənqurma və bərpa-tamamlama işləri zamanı otaqlarda sanitar-texniki cihazlar, havaötürücü borular və ventilyasiya sistemləri quraşdırıldıqda, funksional təyinatından asılı olaraq müalicə-sağlamlaşdırma yerlərində və kurort müəssisələrində tətbiqinə icazə verilən materialların istifadəsi nəzərdə tutulur.

5.2. Divarların, döşəmələrin və tavanların səthi, tətbiqinə icazə verilən yuyucu və dezinfeksiyaedici vasitələrin istifadəsinə davamlı, hamar olmalı və asan təmizlənməlidir.

5.3. Yataq otaqlarında, müalicə-prosedur otaqlarında, xollarda, dəhlizlərdə, yeməkxanalarda, fizioterapiya və digər müalicə-diaqnostika kabinetlərində divarlar antimikrob xüsusiyyətli örtüklərlə üzlənir. Döşəmələr yüksək istilik

izolyasiyası xüsusiyyətlərinə malik olmalıdır.

5.4. Cari dezinfeksiyaya məruz qalan nəm rejimli otaqlarda (prosedur otaqları, müalicəvi vanna otaqları, hovuz, duş kabinələri, sanitar qovşaqları, yuma sahəsi, camaşırxana, çirkli ağların saxlanılması və çeşidlənməsi otaqları) divarlar otaqların hündürlüyü boyu rütubətədavamlı materiallarla üzlənir.

5.5. Döşəmələrin üzlənməsi üçün sukeçirməyən, akustikanı təmin edən inşaat materiallarından istifadə olunur. Müəssisələrin döşəmə örtüklərində deşik və yarıqlar olmamalı, döşəmələr hamar, bünövrəyə kip bərkidilmiş, yuyucu və dezinfeksiyaedici vasitələrin təsirinə qarşı davamlı olmalıdır. Nəm rejimli otaqlarda tavanlar suyadavamlı materiallarla üzlənir.

5.6. Sanitar qovşaqlarında və digər otaqlarda quraşdırılan əlüzyuyanların, sanitar-texniki cihazların quraşdırıldığı yerlərdə divar və arakəsmələrin hündürlüyü 1,6 m olmalı və cihazların hər tərəfi 20 sm enində suyadavamlı materiallarla üzlənir.

5.7. Sanitar-epidemioloji rejimə riayət tələb edilməyən otaqlarda, vestibüllərdə, dəhlizlərdə, xollarda və digər yardımçı otaqlarda müxtəlif konstruksiyalı asma tavanların tətbiqinə icazə verilir.

5.8. Konstruksiyası və materialları hermetikliyi, səthin hamarlığını, nəm üsulla təmizliyi və dezinfeksiyanı təmin edən asma tavanların prosedur, müalicəvi vannalar yerləşən otaqlarda və yataq zonalarında quraşdırılmasına yol verilir.

## 6. Su təchizatı və kanalizasiya sisteminə dair tələblər

6.1. Mərkəzləşdirilmiş təsərrüfat-içməli, soyuq və isti su ilə təmin edilmiş müəssisələrin kanalizasiya sistemi olur. Təsərrüfat-içməli suyun keyfiyyəti qüvvədə olan dövlət standartının tələblərinə cavab verməlidir. Müstəqil su təminatı sisteminə malik olan müəssisə tərəfindən suyun istifadəsi su mənbəyinə dair yalnız müsbət sanitar-epidemioloji rəy olduqda mümkündür.

6.2. Müəssisələrdə yaranan çirkab sularının təmizlənməsi və zərərsizləşdirilməsi həmin müəssisələrin mərkəzləşdirilmiş kanalizasiya təmizləyici qurğularında həyata keçirilir. Bu qurğular olmadıqda, çirkab suları lokal təmizləyici qurğularda tam bioloji təmizlik mərhələsi keçdikdən sonra kənarlaşdırılır.

6.3. Müəssisələrdə həyata keçirilən palçıq müalicəsi prosedurları zamanı, eləcə də müalicəvi palçıqların istifadə edildiyi digər mənbələrdən xaric olan çirkab suları əvvəlcədən xüsusi axıdıcı borularla palçıq çökdürücülərinə yığılır.

6.4. İritutumlu kurort komplekslərinin qidalanma bloklarından xaric olan çirkab sularının təmizlənməsi üçün kanalizasiya sistemində xüsusi yağtutucu qurğular nəzərdə tutulur.

6.5. Yeni tikilən və yenidən qurulan müəssisələrin isti su təchizatı sistemində profilaktik təmir işləri və sıradan çıxma halları üçün ehtiyat isti su təchizatı qurğusu nəzərdə tutulur.

6.6. Mövcud müəssisələrin sanitariya-məişət otaqlarında, müayinə və prosedur kabinetlərində, vanna və şəxsi gigiyena kabinetlərində, bufetlərdə, bufet-paylama məntəqələrində, qida bloklarında və əksepidemik rejim tələb edilən digər funksional müayinə otaqlarında ehtiyat isti su təminatının mənbəyi kimi müasir elektrik suqızdırıcı sistemləri nəzərdə tutulur.

6.7. Yataq otaqlarında, tibbi müayinə, diaqnostik və prosedur kabinetlərində, heyət və iş otaqlarında, sanitar qovşaqlarında, digər sanitariya-məişət və yardımçı otaqlarda isti və soyuq su ilə təchiz edilən əlüzyuyanlar quraşdırılır.

6.8. Müayinə, fizioterapiya və prosedur otaqları, müalicəvi vanna otaqları, sanitariya-məişət otaqları, əllərin təmizliyi tələb edilən digər otaqlarda isti və soyuq su ilə təchiz edilmiş fotosensorlu əlüzyuyanlar, maye sabun və ya digər antiseptik məhlullarla təchiz olunmuş dozatorlar quraşdırılır.

6.9. Müəssisə daxilində yerləşən içməli sututumları və anbarları ildə bir dəfədən az olmayaraq, təsdiq edilmiş təlimat üzrə yuyulub dezinfeksiya edilir.

6.10. Dövlət *sanitariya nəzarəti* orqanları tərəfindən müəssisədə içməli suyun fiziki-kimyəvi və bakterioloji göstəriciləri üzərində mütəmadi olaraq laboratoriya - tədqiqat üsullarının tətbiqi ilə nəzarət təmin edilir.

6.11. Yerli kanalizasiya sistemləri mövcud olan sahələrdə çirkab su quyusunun hermetikliyi təmin olunur və quyu dolma həddindən asılı olmayaraq, ildə 2 dəfədən az olmamaq şərtilə təmizlənir.

6.12. Müalicəvi çimərliklərin ərazisində hər 75 nəfərə 1 ədəd hesabı ilə ictimai ayaqyolular nəzərdə tutulur. Sahildən ayaqyoluna qədər məsafə 50 m-dən az, 100 m-dən çox olmamalıdır. Əmələ gələn tullantıların (maye və bərk fraksiyalı) dənizə (çaya, gölə) axıdılmasına yol verilmir və yerli kanalizasiya sistemi qurulduqda (çirkab quyusu), ciddi rejim zonasına dair tələblər nəzərə alınır.

## 7. İstilik təchizatına, ventilyasiya sisteminə və mikroiqlimə dair tələblər

7.1. Müəssisələrdə otaqların mikroiqlimini tənzimləyən, əlverişli temperatur şəraitini və hava mübadiləsini təmin edən qurğu və sistemlər istifadə olunur.

7.2. Müəssisələrin binaları mexaniki havasorucu-havaverici, təbii ventilyasiya və mikroiqlim sistemləri ilə təchiz olunur.

7.3. Otaqlar mexaniki havasorucu-havaverici ventilyasiya ilə yanaşı, həm də təbii ventilyasiya sistemləri (nəfəslik, framuqa və s.) ilə təmin edilir.

7.4. Ventilyasiya və mikroiqlimi tənzimləyən sistemlər üçün hava yer səthindən 2 m hündürlükdə olan təmiz zonadan qəbul edilir.

7.5. Havaverici ventilyasiya sistemlərinin havaötürücü boruları paslanmayan materialdan hazırlanır.

7.6. Yuma və duş otaqlarında, sanitar qovşaqlarında, şəxsi gigiyena otaqlarında, tullantılar yığılan sahələr çirkli ağlar və dezinfeksiyaedici vasitələr saxlanılan anbarlarda mütəşəkkil hava axını təşkil edilmədən mexaniki sorucu ventilyasiya sistemi nəzərdə tutulur.

7.7. Müəssisələrdə quraşdırılan müasir çiller və split sistemləri sanitar-gigiyenik tələblərə cavab verməlidir.

7.8. Havaötürücü, havapaylayıcı və havaqəbuledici şəbəkələr, ventilyasiya kameraları və ventilyasiya qurğuları təmiz vəziyyətdə saxlanılmalı, onlarda mexaniki zədələrə, korroziya izlərinə, hermetikliyin pozulması hallarına yol verilmir.

7.9. Ventilyator avadanlıqları və elektrik mühərrikləri əlavə səs-küy yaratmamalıdır.

7.10. Sorucu ventilyasiya sisteminin (həmçinin, soyudulma sisteminin) hava-ötürücü borularının daxili örtükləri hopdurucu xüsusiyyətə malik olmamalıdır.

7.11. Ventilyasiya sisteminin texniki avadanlıqları üfüqi və şaquli istiqamətlərdə olan yataq otaqlarından, istirahət yerlərindən, müayinə-prosedur kabinetlərindən, müalicəvi vannalar üçün sahələrdən, eləcə də insanların daim qaldığı digər otaqlardan aralı, xüsusi texniki sahələrdə yerləşdirilir.

7.12. Ventilyasiya və soyudulma sistemlərinin təmiri və profilaktik təftişi ildə ən azı 2 dəfə həyata keçirilir. Cari nasazlıqlar və nöqsanlar təxirəsalınmadan aradan qaldırılır.

## 8. Təbii və süni işıqlanmaya dair tələblər

8.1. Müəssisələrdə otaqlar təbii işıqlanmaya malik olmalıdır. İkinci işığın və ya yalnız süni işıqlanmanın tətbiqinə təbii işıqlanma tələb olunmayan anbarlarda, yataq otaqlarının nəzdindəki sanitar qovşaqlarında, müalicəvi və gigiyenik vanna otaqlarında, prosedur kabinetlərində, şəxsi gigiyena otaqlarında, heyət üçün duş otağında, paltarlar saxlanan yerlərdə və fizioterapevtik müalicə kabinetlərində yol verilir. Layihələndirilən müəssisələrdə təbii və süni işıqlanmanın səviyyəsi mövcud sanitariya qaydalarına, təbii və süni işıqlanmaya dair qüvvədə olan standartlara uyğun olmalıdır.

8.2. Yataq otaqları yerləşən zonaların və istirahət guşələrinin dəhlizləri xollardakı pəncərələr vasitəsilə həyata keçirilən təbii işıqlanmaya malik olmalıdır.

8.3. Otaqlarda insolyasiya davamiyyəti yaşayış və ictimai binaların, eləcə də ərazilərin insolyasiya və günəşdən mühafizəsinə dair gigiyenik tələblər nəzərə alınmaqla qəbul olunur.

8.4. Binaların cənuba yönələn pəncərələri günəş şüalarının gözqamaşdırıcı təsirindən və qızmaqdan mühafizəsi üçün günəşdən mühafizə qurğuları (jalüz və s.) ilə təchiz edilir.

8.5. Süni işıqlandırma (ümumi və yerli) qurğuları, işıq mənbəyi, işıqlanma cihazının növü qüvvədə olan şəhərsalma və tikintiyə dair normativ sənədlərə uyğun qəbul edilir.

8.6. Müalicə-sağlamlaşdırma sahələrində və prosedur otaqlarında divardan asılan və ya daşınan işıqlandırma cihazlarının quraşdırılmasına yol verilir.

## 9. İşçi heyətinin iş şəraitinə və şəxsi gigiyenasına dair tələblər

9.1. Müəssisələrdə çalışan işçi heyəti dəyişək üçün lazımi sayda xüsusi geyim dəsti ilə təmin olunur. Bunlara xələtlər, kostyumlar, papaq və ya baş yaylıqları, maskalar, xüsusi ayaqqabılar və s. aiddir. Xüsusi geyim dəstləri fərdi şkaflarda saxlanılır. Üst geyimləri heyət üçün nəzərdə tutulan qarderobda saxlanılır.

9.2. Əsas funksional bölmələrdə və iş yerlərində əlverişli mikroiqlim göstəriciləri və hava mühitinə dair digər normativ göstəricilər (hərarət, rütubət, havanın cərəyan sürəti, kimyəvi və bakterioloji tərkibi) təmin olunur.

9.3. Müəssisələrdə avadanlığın yerləşdirilməsi və istismarı texniki təhlükəsizlik və əməyin mühafizəsi qaydalarına uyğun həyata keçirilməli və texnoloji axın ardıcıllığı təmin edilir.

9.4. İşçi heyəti üçün nəzərdə tutulan sanitariya-məişət otaqları aşağıdakı şərtlərə cavab verməlidir:

9.4.1. qarderobda şkafların sayı heyətin say tərkibinə müəyyən edilir;

9.4.2. üst geyimləri saxlanılan qarderobun sahəsi 1 asılqana 0,08 $m^2$ hesabı ilə qəbul edilir;

9.4.3. işçi heyətinin iş və ev geyimləri saxlanılan qarderobun sahəsi 1 şkafa 0,4 $m^2$-dən az olmayaraq qəbul edilir. Qarderoblar heyətin sayına uyğun olaraq iş və ev (şəxsi) geyimləri, ayaqqabıların və papaqların ayrılıqda saxlanılması təmin edilən ikibölməli, kip bağlanan və havası dəyişdirilən şkaflarla təchiz olunur;

9.4.4. işçi heyəti üçün duş otaqları və sanitar-texniki cihazların sayı qüvvədə olan tikinti normalarına uyğun qəbul edilir;

9.4.5. qadınlar üçün tərkibində duş və prosedur kabinəsi olan şəxsi gigiyena otaqları nəzərdə tutulur. Prosedur kabinəsinin ölçüsü 1,8x1,2m-dən az olmamalıdır. Kabinələrdə geyimlərin və ağların asılması üçün asılqanlar vurulur.

9.5. Hər bir struktur bölməsində işçi heyəti üçün sahəsi 12 $m^2$-dən az olmayan və soyuducu, elektrik suqızdırıcısı, yeməklərin qızdırılması üçün qurğu və əlüzyuyanla təchiz olunmuş istirahət otaqları nəzərdə tutulur.

9.6. Müəssisənin rəhbərliyi qüvvədə olan qanunvericiliyə uyğun olaraq, işçi heyətinin əmək və istirahət şəraitinin yaxşılaşdırılmasını təmin edir.

9.7. Müəssisələrdə çalışan işçi heyəti müəyyən edilmiş qaydada işə qəbul olunduqda ilkin, sonradan isə dövri tibbi müayinələrdən keçir.

9.8. Müxtəlif ixtisaslaşdırılmış bölmələrdə və müalicə-sağlamlaşdırıcı kabinetlərdə çalışan heyətin iş şəraitinə dair tələblər həmin bölmə və kabinetlərin təşkilinə və istismarına dair xüsusi qaydalarla tənzimlənir.

## 10. Məişət və tibbi tullantıların toplanılmasına, daşınmasına, ərazilərin təmizlənməsinə dair tələblər

10.1. Məişət tullantılarının daşınması Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 21 aprel tarixli 74 nömrəli qərarı ilə təsdiq edilmiş “Şəhərlər və digər yaşayış məntəqələri ərazisinin sanitariya qaydalarına, gigiyena və ekoloji normativlərə uyğun olaraq təmizlənməsi, məişət tullantılarının müvəqqəti saxlanılması, müntəzəm daşınması və zərərsizləşdirilməsi Qaydaları”na uyğun olaraq təşkil edilir.

10.2. Müəssisələrdə əmələ gəlmiş tibbi tullantılar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 dekabr tarixli 213 nömrəli qərarı ilə təsdiq edilmiş “Tibbi tullantıların idarə olunmasına dair Tələblər"ə uyğun olaraq toplanılıb kənarlaşdırılır.


**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 20 avqust 2014-cü il tarixli **288** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (“**Azərbaycan” qəzeti 23 avqust 2014-cü il, 181, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 8, maddə 1021** )

2. 7 mart 2019-cu il tarixli **80** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 14 mart 2019-cu il, 59, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 514**)
3. 30 oktyabr 2021-ci il tarixli **330** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 4 noyabr 2021-ci il, 239 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 10, maddə 1197**)

**QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 7 mart 2019-cu il tarixli **80** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 14 mart 2019-cu il, 59, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 514**) ilə "Sanatoriya-kurort müəssisələrində sanitar-gigiyenik Tələblər"in 2.9-cu bəndinin ikinci cümləsində "**əlil**" sözü "**əlilliyi olan şəxslərin**" sözləri ilə əvəz edilmişdir.

[2] 20 avqust 2014-cü il tarixli **288** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ("**Azərbaycan" qəzeti 23 avqust 2014-cü il, 181, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 8, maddə 1021** ) ilə "Sanatoriya-kurort müəssisələrində sanitar-gigiyenik Tələblər"in 3.1-ci bəndinin birinci cümləsinə "**ətrafında**" sözündən sonra "**Azərbaycan Respublikasının "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Qanununun 10-1-ci maddəsinə və**" sözləri əlavə edilmişdir.

[3] 30 oktyabr 2021-ci il tarixli **330** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 4 noyabr 2021-ci il, 239, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 10, maddə 1197**) ilə "Sanatoriya-kurort müəssisələrində sanitar-gigiyenik Tələblər"in 4.5-ci bəndinin üçüncü cümləsində və 6.10-cu bəndində "**sanitariya-epidemioloji nəzarət**" sözləri "**sanitariya nəzarəti**" sözləri ilə əvəz edilmişdir.